# QARA VƏTƏN FƏDAİSİ İDİ

## *Şəhid Qara Əmirxan oğlu Balakişiyevin (11.07.1994-27.09.2020) həyat yoldaşı Validə xanımla müsahibə*



*44 günlük Vətən müharibəsinin hər günü ağır keçdi... Həm payız günündə ömür yarpaqları xəzəlləyən əsgərlərimiz sarıdan, həm də onların gözləri yolda, qulaqlarısəsdə, ürəkləri səksəkədə qalan ailələri, sevdikləri sarıdan. Həmin günlərdə verilən hər bir Şəhid on milyon yaralı ürək, bir ocağı sönmüş ev demək idi. Lakin bu on milyon yaralı olsa da həm də qürurlu, zəhmli, gözü arxada qalmayan bir millətin sayı idi. Şəhidlər qürur yeri, qisas mənbəyi idilər. Onlar soyuq səngərlərdə mərd kimi dayandılar ki, biz isti yorğan-döşəkdə rahat yataq. Onlar Vətən uğrunda şəhid oldular ki, Zəfəri çalıb Qarabağda qürurla addım ataq! Vətənin, torpağın azadlığı uğrunda bir dəfə verilən candan keçəcək qədər Vətəni sevən bu fədailəri tanıtmaq, onların ömür və döyüş yolunu işıqlandırmaq bizim borcumuzdur və bu borc üçün biz də qələmimizlə vuruşacağıq!*

*Bu dəfə Aprel döyüşlərində qarşılaşdığı və kürəyini yerə vurduğu düşmənlə Vətən müharibəsinin ilk günü yenə qarşılaşan, od-alovun əhatəsində mərd kimi, qəhrəman kimi döyüşən və şəhid olan kiçik çavuş Qara Əmirxan oğlu Balakişiyev haqqında danışacağam.*

*Şəhid kiçik çavuş Qara Balakişiyev 11 iyul 1994-cü ildə Xocavənd rayonunun Əmiralılar kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Xocavənd rayon 4 saylı orta məktəbdə təhsil almışdır. 2012-ci ildə isə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildə həqiqi hərbi xidməti başa vurduqdan sonra elə həmin il müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarına geri dönür. 2016-cı ildə Azərbaycan Ordusunun parlaq qələbəsi ilə bitən, tarixə Aprel döyüşləri adı ilə yazılan döyüşlərdə aktiv iştirak edir. Qara Vətən müharibəsinin ilk günündən döyüşlərə atılmış, düşmənin xeyli sayda post və istehkamlarının dağıdılmasında xüsusi şücaət göstərmişdir. O, müharibənin ilk günü Füzuli-Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.*

*İndi isə sizə şəhidimizin həyat yoldaşı Validə xanımdan apardığım müsahibəni təqdim edirəm.*

**Sual:** Xahiş edirəm, özünüzü təqdim edəsiniz.

**Cavab:** Mən, şəhid Qara Balakişiyevin həyat yoldaşı Balakişiyeva Validə İlham qızıyam.

**Sual:** Qara Balakişiyevlə ilk tanışlığınız və ailə həyatı qurmaq qərarına gəlməyiniz barədə nə deyə bilərsiniz?

**Cavab:** Qara mənim həm dayım oğlu, həm də bibim oğludur.Mən də Qaranın həm dayısı qızı, həm də bibisi qızıyam. Yəni hər iki tərəfdən qohumuq.Qara 11-ci sinifdə oxuyanda mən 9-cu sinifdə oxuyurdum. O, məndən 2 yaş böyük idi. Qara 1994-cü il təvəllüdlüidi.Mən isə 1996-cı ildə anadan olmuşam. Qohum olsaq da həmin vaxtlardan?elə məktəb illərindənQarada mənə qarşı xüsusi münasibətin olmasını hiss edirdim, duyurdum, ancaq büruzə vermirdim. O, məni, həqiqətən də çox istəyirdi. Hər ikimiz orta məktəbi bitirdikdən sonra valideynlərimizin xeyir-duası ilə nişanlandıq və 2014-cü ildə toyumuz oldu, ailə həyatı qurduq. Bu evlilikdən biri-birinin ardınca iki qız övladımız dünyaya gəldi. Onlardan birinin adını Xədicə, digərinin adını isə Nazimə qoyduq. Qızlarımızdan biri Qaranın anasının adını daşıyır.

**Sual:** Şəhidimizin ailədə, tanışları və dostları arasında xarakteri, xasiyyəti barəsində nə deyə bilərsiniz, təbiətcə necə insan idi Qara?

**Cavab:** Qaragil ailədə 3 qardaş, 1 bacı idilər. Qaranın elə bir gözəl xasiyyəti var idi ki, onu sizə necə deyim, hansı ifadə vasitəsi ilə, hansı sözlə, hansı formada çatdırım ki, onu olduğu kimi xarakterizə etsin. Yəni mən elə bir söz, elə bir cümlə tapmıram ki, Qaranın xasiyyətinin gözəlliyini ifadə etsin. Yalnız onunla bir dam altında, bir yerdə yaşayan bilə bilərdi ki, Qara necə gözəl xasiyyətdə bir insan idi. Böyüyün, kiçiyin, ağsaqqal-ağbirçəyin yerin bilən, uşaqla uşaq, böyüklə böyüklük edən, ailəcanlı, qohumcanlı, imkansızlara hər formada dayaq duran, səmimi, mehriban, dosta sədaqətli olan biri idi Qara. Yəni hər tərəfli gözəl xüsusiyyətli bir insan idi O. Sanki onu bizə



cənnətdən bir mələk kimi göndərmişdi Uca Yaradan. Elə həmin Uca Yaradan da onu bir mələk kimi öz dərgahına tez qovuşdurdu, əlimizdən alıb cənnətinə apardı.

**Sual:** Həyat yoldaşınızın 2016-cı ilin aprel ayında baş vermiş, tarixə "Aprel döyüşləri" kimi daxil olmuş döyüşlərdə iştirak etdiyini biləndə hansı hissləri keçirdiniz?

**Cavab:** Qara 8 il idi ki, öz arzusu ilə hərbi xidmətdə idi. Yəni 2014-cü ildə həqiqi hərbi xidməti bitirib evə dönəndən sonra elə həmin ilin aprel ayının 20-də müddətdən artıq hərbi xidmət etməyə başladı. Kurs keçərək MAXE kimi xidmətini davam etdirdi. Bir müddət sonra, yəni 2016-cı ildə aprel ayında qısa müddət davam edən döyüşlərdə iştirak etdi. Lələtəpənin azad olunmasında onun böyük uğurları olmuşdu. O, həmin döyüşlərdə ordumuzun uğurlarına çox,həddindən çox sevinirdi. Ona görə ki azda olsa, torpağımız düşmən tapdağından azad olunmuşdu, bu, böyük zəfərin başlanğıcı idi və bu əməliyyatlarda onun da payı var idi. Həmin uğura sevinən bir oğulunşəhid ruhu indi azad Qarabağ səmalarında xoşbəxtcəsinə pərvazlanır. Qara kimi oğulların canı bahasına Qarabağ bu gün azaddır.Elə bil o, bunların hamısını əvvəlcədən bilirdi.

***(Davamı var)***



**Sevindik NƏSİBOĞLU**